# Ənənələri yaşadan təhsil ocağı

Bakı şəhəri Binəqədi rayon 83 nömrəli tam orta məktəbi respublikamızın ən qabaqcıl məktəblərindən biri olmuşdur. Sonralar bu ümumtəhsil məktəbin bazasında riyaziyyat və təbiət elmləri təmayüllü lisey təşkil edilmiş, Bakı şəhəri üzrə təhsil idarəsinin təşəbbüsü ilə 83 nömrəli tam orta məktəb və lisey birləşdirilmiş, 1994-cü ildən məktəb-lisey yeni bir keyfiyyətdə fəaliyyətə başlamışdır.

1971-ci ildə binası inşa edilən bu təhsil ocağının yeni korpusu 2008-ci ildə istifadəyə verilmiş, 2011-ci ildə isə məktəb binası əsaslı şəkildə təmir edilmişdir. 68 sinif otağı olan 892 şagird təhsil alan bu məktəb-liseydə 131 müəllim çalışır.

1994-cü ildə məktəb-liseyə direktor təyin



edilən AMEA-nın Riyaziyyat və Mexanika İnstitutunun böyük elmi işçisi, fizika-riyaziyyat elmləri üzrə fəlsəfə doktoru Nəbi Mahmudov 2002-ci ilin mart ayınadək burda fəaliyyət göstərmiş, 2014-cü ildə yenidən doğma kollektivə qayıtmışdır.

Ötən illərin uğurlarından, yeni dərs ilinin qarşıya qoyduğu məsul vəzifələrdən ürək dolusu danışan Nəbi müəllim söhbət zamanı bildirdi ki, 1994-cü ildə yeni tipli təhsil müəssisəsi kimi fəaliyyətə başlamış məktəb-liseydə, ümumi orta təhsil səviyyəsində fənlərin tədris keyfiyyətinin yüksəldilməsi üçün böyük işlər gördük. Bu məqsədlə məktəb-lisey şurası yaradıldı. Şuraya Bakı Dövlət Universitetinin kafedra müdiri, fizika-riyaziyyat elmləri doktoru, professor Məmməd Yaqubov rəhbərlik etdi. Şuranın təklifi ilə lisey siniflərində təmayül fənlərini tədris etmək üçün saat hesabı işləyən alimlər, metodistlər—8 elmlər doktoru, professor, 24 elmlər namizədi, dosent işə dəvət olundu. Məktəb-liseyin lisey siniflərinə şagird qəbulu prosesi obyektiv və şəffaf şəkildə AMEA-dan, Bakı Dövlət Universitetindən, Azərbaycan Dövlət Pedaqoji Universitetindən dəvət edilmiş professor-müəllim heyəti tərəfindən həyata keçirildi. Məktəb-liseydə elmi-metodik şura, şagird elmi cəmiyyəti yaradıldı, fəaliyyət göstərən məktəb-lisey valideyn komitəsi, şagirdlərin hüquqlarını müdafiə edən şagird parlamenti təşkil olundu. Elmi-metodik şura fəaliyyət planına uyğun olaraq müəllimlərin fəaliyyətini müntəzəm olaraq izləyir və obyektiv olaraq qiymətləndirirdi. Tənqid və özünütənqid şəffaflıq ruhu, məktəb-liseyin sağlam inkişafına ciddi təsir göstərdi.

Qəbul edilmiş nizamnaməyə uyğun olaraq dərs ilinin birinci və ikinci yarımillərinin sonlarında lisey siniflərində təhsil alanlar təmayül fənlərindən imtahan verir, nəticələrindən asılı olaraq təhsillərini lisey və ya ümumtəhsil siniflərində davam etdirirdilər. Bu, şagirdlərin öyrənməyə meylini artırırdı. Hazırda məktəb-liseydə psixoloji xidmətin həyata keçirilməsinə ciddi önəm verilir. Bütün hallarda istedadı ilə seçilən şagirdlərin inkişafı təmin edilir, şagirdlər sinifdənkənar məşğələlərə cəlb olunur və onlarda riyazi-fiziki, kimyəvi-tənqidi təfəkkürün inkişafı ön plana çəkilir. AMEA-nın Riyaziyyat və Mexanika İnstitutu, Bakı Dövlət Universitetinin Mexanika-riyaziyyat və tətbiqi riyaziyyat fakültələri ilə əlaqələr yaradılır və hər il şagirdlər arasında fənlər üzrə olimpiadalar, yarışlar keçirilir. 1996-cı ildə Zaqafqaziya respublikalarının Tbilisi şəhərində keçirilən "Sülhməramlı Qafqaz" beynəlxalq müsabiqəsində respublikamızı məktəb-liseyin şagirdi Anar Şıxəliyev təmsil etmiş və müsabiqənin laureatı olmuşdur. Ülvi Yusifov 1997-ci ildə "Heydər Əliyev və Azərbaycan" mövzusunda inşa yazı müsabiqəsinin qalibi, rus dili olimpiadasının (Moskva, 1998) gümüş mükafatçısı olmuşdur. Anar Mahmudov "Qafqaz—bizim evimizdir" ekoloji konfransının (Tbilisi, 1998) sertifikatçısı, Cavid Qafarzadə UNESCO-nun Parisdə keçirilən Parlament Assambleyasının (1999) iştirakçısı kimi bizi sevindirmişlər.

Lap əvvəllərdən məktəb-liseyin tədris planına informatika, Azərbaycan təbiəti fənləri daxil edilmiş. İnformatika fənninin tədrisi səviyyəsinin yüksəldilməsi üçün Binəqədi rayon müəllimlərinin elmi seminarı fəaliyyətə başlamış, şagird elmi cəmiyyətinin üzvləri də həmin seminarlarda fəal şəkildə iştirak etmişlər. ŞEÇ-in üzvlərindən Sevinc Mahmudovanın "Proqramlaşdırmaya dair məsələlər" (Bakı, 1998), Toğrul Əliyevin "Proqramlaşdırmaya aid bəzi məsələlərin həlli" (Bakı, 1999), Ülvi Yusifov və Sevinc Mahmudovanın "Massivlərə aid məsələlər" (Bakı, 2002) kitabçaları çap olunmuşdur. Şagirdlər xüsusilə olimpiadalarda fəal iştirak edirlər: Aytən Məmmədova biologiyadan birinci yerə layiq görülmüş, Azərbaycan Dövlət Tibb Universitetini fərqlənmə diplomu ilə bitirmişdir. Hazırda o, ABŞ-da yaşayır və göz həkimi işləyir. Sevinc Mahmudova informatikadan respublika turunda fəxri-fərmanla təltif olunmuş, Azərbaycan Tibb Universitetini yüksək qiymətlərlə bitirmiş, hazırda isə kardioloq həkim olaraq Füzuli Rayon Mərkəzi Xəstəxanası baş həkiminin müavini vəzifəsində çalışır.

Şagird elmi cəmiyyəti AMAKA-nın Kosmik Tədqiqatlar İnstitutu, BDU-nun biologiya fakültəsi, Təhsil Nazirliyinin Ekoloji Tərbiyə və Təcrübəçilik Mərkəzi Binəqədi RİH-in humanitar məsələlər şöbəsi ilə birlikdə "Müasir dövrdə ekoloji problemlər və onların aradan qaldırılması yolları"na həsr olunmuş şagird elmi cəmiyyətinin konfransını keçirmişdir.

Sistemli şəkildə ardıcıl həyata keçirilən işlər öz nəticələrini vermiş, 1997-ci ilin nəticələrinə görə ölkənin ilk 10 məktəbi arasında yer alan məktəb-lisey məzunlarının ali məktəblərə qəbulu nəticələrinə görə, 2001-ci ildə TQDK-nın statistik hesabatında (Abituriyent jurnalı, N-12) qeyd edildiyi kimi 4-cü, Bakı şəhərinin ümumtəhsil məktəbləri arasında isə 1-ci nəticəyə nail olmuşdur.

Azərbaycanın gələcəyini onun təhsilinin inkişafında görən ulu öndər Heydər Əliyevin 1998-ci ildə imzaladığı 168 nömrəli sərəncamla "Azərbaycan Respublikasının təhsil sahəsində İslahat Proqramı" qəbul edilmiş, bu, ölkəmizin təhsil sistemində islahatlara başlanmasının əsasını qoymuşdur. Dünya Bankının (Dünya İnkişaf Assosiasiyasının) beynəlxalq ekspertləri ölkəmizə dəvət edilmiş, onların tövsiyələrinə uyğun olaraq beş nəfər yerli —milli məsləhətçilərin seçilməsi məqsədəuyğun hesab edilmişdir. Mən 1999-cu ildə ilk milli məsləhətçilərdən biri olaraq seçilmiş və islahat proqramı çərçivəsində bir sıra sənədlərin hazırlanmasında iştirak etmiş, 1999-cu ildən 2004-cü ilin mart ayınadək milli məsləhətçi kimi fəaliyyət göstərmişəm, 2004-cü ilin martında Dünya Bankı ekspertlərinin tövsiyəsi ilə Təhsil Nazirliyində yaradılmış "Şagird nailiyyətlərinin qiymətləndirilməsi" şöbəsinə baş məsləhətçi vəzifəsinə qəbul olunmuş və 2014-cü ilin avqustunadək bu vəzifədə çalışmışam. Bu müddət ərzində Təhsil Nazirliyinin fəaliyyət planına uyğun olaraq müvafiq işlərin həyata keçirilməsində iştirak etmiş, ümumtəhsil məktəbləri üçün informatika fənn proqramının tərtibçilərindən, Milli Kurikulum çərçivə sənədinin (informatika üzrə) hazırlanmasında iştirak etmiş, 5-ci siniflər üçün ilk informatika dərsliyinin (Bakı, 2005) həmmüəlliflərindən biri olmuşam.

150-dən yuxarı dərslik, dərs vəsaitinin, müəllimlər üçün metodik vəsaitin, elmi və elmi-metodik məqalənin müəllifi, təhsil islahatının həyata



keçirilməsi çərçivəsində ümumtəhsil məktəblərinin şagirdləri üçün riyaziyyat və informatika fənlərindən qiymətləndirmə vasitələrinə dair vəsaitlərin, həmçinin müəllimlər üçün "ümumi təhsil pilləsində qiymətləndirmə" (Bakı, 2012) vəsaitinin, 30-dan yuxarı məqalə və vəsaitin müəllifi kimi təhsil naziri Mikayıl Cabbarovun əmrinə əsasən ötən ilin avqust ayında yenidən 83 nömrəli məktəb-liseyə direktor vəzifəsinə təyin olundum. 2014-2015-ci dərs ilində məktəb-lisey Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin müvafiq sərəncamları ilə "İlin ən yaxşı məktəbi" müsabiqəsinin qalibi seçilmiş, coğrafiya müəllimi Kamandar Həsənova Azərbaycan Respublikasının Əməkdar müəllimi fəxri adı verilmişdir. Təsviri incəsənət müəllimi, Təhsil Nazirliyinin dərslikləri qiymətləndirmə üzrə eksperti Xatirə Xudiyeva təhsil nazirinin əmri ilə Azərbaycan Respublikasının qabaqcıl təhsil işçisi fəxri adına layiq görülmüşdür. 2014-2015-ci dərs ilində məktəb-liseydə Bakı şəhər məktəblilərinin informatikadan "Qunduz" beynəlxalq müsabiqə olimpiadası, IV-VII sinif şagirdlərinin "Kenquru" riyaziyyat olimpiadası, inşa yazı və rəsm müsabiqələri keçirilmişdir. Təhsil islahatının həyata keçirilməsi istiqamətində səmərəli işlər görülmüşdür.

Azərbaycan Respublikasının təhsil naziri Mikayıl Cabbarovun əmrinə əsasən respublikanın 50 pilot müəssisəsində, o cümlədən 83 nömrəli məktəb-liseydə pilot təmayül siniflərinin açılması məqsədəuyğun hesab edilmişdir. Pedaqoji kollektiv IX sinif şagirdləri və onların valideynləri arasında məqsədyönlü maarifləndirmə işi aparmış, Azərbaycan bölməsi üzrə I, II və III, rus bölməsi üzrə II və IV ixtisas qrupları üzrə siniflərin açılmasına nail olmuşdur. Bu işdə təlim-tərbiyə işləri üzrə direktor müavinləri—fizika üzrə fəlsəfə doktoru, əməkdar müəllim Nizami Ağayevin, Sevinc Raziyevanın, riyaziyyat müəllimi Rəna Rzayevanın, məktəb-lisey həmkarlar təşkilatının sədri, məktəb-liseyin ilk məzunlarından olan tarix müəllimi Sevinc Allahverdiyevanın müstəsna xidmətləri olmuşdur.

Cari dərs ilində məktəb-lisey pedaqoji kollektivi müəllimlərin peşəkarlıq səviyyəsinin yüksəldilməsi üçün elmi-metodik şuranın, valideyn icmasının fəaliyyətinin yüksəldilməsi gündəmdədir.

Ümummilli lider Heydər Əliyevin anım günü və anadan olmasının 92-ci ildönümü münasibəti ilə "Heydər Əliyev lektoriyası"nda dahi şəxsiyyətin həyat və fəaliyyətinin ayrı-ayrı dövrlərinin öyrənilməsi istiqamətində tarix müəllimləri Afaq Vəliyeva, Kəmalə Qurbanova, Cəmilə Hacıyeva, Sevinc Allahverdiyeva, Natavan Mustafayeva və Nərgiz Novruzova şagirdlər qarşısında mühazirələr oxumuş və fəxri-fərmanlarla təltif edilmişlər.

Bakı şəhəri üzrə Təhsil İdarəsinin IV-VII sinif şagirdləri arasında "Mənim Vətənim" mövzusunda keçirdiyi inşa yazı müsabiqəsində III sinif şagirdi Fatimə Nəsirli (müəllim—Xatirə İmaməliyeva) I, Vergilər Nazirliyinin keçirdiyi olimpiadada isə IV sinif şagirdi Amin Cəfərzadə (müəllim—Atlas Mikayılova) II dərəcəli diploma layiq görülmüşdür.

2015-ci ilin aprel-may aylarında məktəb-liseydə ingilis dilinin öyrədilməsi üçün 2 linqafon kabineti, 2 informatika kabineti, gənclərin çağırışaqədərki hazırlığı fənn kabineti, 2 "sağlam təhsil" sinfi yaradılmış, sinif otaqlarına 34 proyektor, 20 "ağıllı lövhə" quraşdırılmışdır.

Görülən işlərin nəticəsi kimi, cari ildə məktəb-liseyi bitirmiş şagirdlərin 80 faizdən çoxu respublikanın və xarici ölkələrin ali məktəblərinə daxil olmuş, 8 nəfər məzun 600-dən yuxarı bal toplamış, Neft Akademiyasına, BDU-ya, Tibb Universitetinə, Azərbaycan Prezidenti Yanında Dövlət İdarəetmə Akademiyasına, Bakı Slavyan Universitetinə qəbul olunmuşlar.

Bu gün Sovet İttifaqı Qəhrəmanı Həbibulla Hüseynov adına Bakı şəhər 83 nömrəli məktəb-lisey ən müasir tələblərə cavab verən avadanlıq və dərs ləvazimatları ilə təchiz edilmiş işıqlı, geniş sinif otaqları ilə məktəbliləri öz qoynuna alır.

Şagirdlərin hərbi hazırlıq və hərbi-vətənpərvərlik ruhunun yüksəldilməsi məqsədilə çağırışaqədərki fənn kabinetləri, istilik və işıqlandırma sistemləri, ulu öndər Heydər Əliyevin təhsilin inkişafına göstərdiyi qayğını, ölkə Prezidenti İlham Əliyevin, Heydər Əliyev Fondunun prezidenti, YUNESKO-nun və İSESKO-nun xoşməramlı səfiri, millət vəkili Mehriban xanım Əliyevanın təhsil ocaqlarının müasir standartlar səviyyəsinə çatdırılması istiqamətində gördükləri işləri əks etdirən fotolardan ibarət foyedə yaradılmış stendlər, hər şey, hər şey göz oxşayır.

Riyaziyyat üzrə fəlsəfə doktoru, Lütfi-Zadə adına Beynəlxalq Müasir Elmlər Akademiyasının müxbir üzvü Nəbi Mahmudovun rəhbərlik etdiyi 83 nömrəli məktəb-liseyin yeni dərs ilinə hazırlığı təsdiqləyir ki, ölkəmizdə təhsil islahatları uğurla həyata keçirilir.

Bütün bunlar isə ilk növbədə şagirdlərin ən yüksək səviyyədə təhsil almaları, onların elmin sirlərinə hərtərəfli yiyələnmələri üçün geniş imkanlar açır.

83 nömrəli məktəb-liseyin kollektivinə yeni dərs ilində uğurlar arzulayırıq.

**Rəfiqə MƏSUD,**
**kinossenarist, publisist, respublikanın əməkdar mədəniyyət işçisi.**